# Regionların sosial-iqtisadi inkişafı əhalinin rifah halını daha da yaxşılaşdırır

***❒ Prezident İlham Əliyevin son illərdə regionlara səfərləri, pambıqçılığın, baramaçılığın, tütünçülüyün, çayçılığın, fındıqçılığın, çəltikçiliyin inkişafı ilə əlaqədar ümumrespublika müşavirələri keçirməsini, strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının daha da artırılmasını diqqət mərkəzində saxlaması artıq öz bəhrəsini verir.***



Dövlətimizin başçısının son ay ərzində Qobustan, Şamaxı, Göygöl, Goranboy rayonlarına, Gəncə şəhərinə, Ağcabədi, Tərtər, Sabirabad və Qubaya səfərləri zamanı bir sıra yeni obyektlərin açılışlarında iştirakı, ictimaiyyətin nümayəndələri ilə görüşlərdə qeyri-neft sektorunun inkişafına bundan sonra da xüsusi önəm veriləcəyini bildirməsi regionlarda əhalinin məşğulluğunun artırılmasında böyük rol oynayıb. “Azərbaycan brendi”nin dünya bazarına çıxarılması, strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının artırılması və ümumilikdə, qeyri-neft sektorunun inkişafı dövlət büdcəsinin artımına da öz təsirini göstərmişdir.

Prezident İlham Əliyev regionlara son səfərləri zamanı əhali ilə keçirdiyi görüşlərdə bundan sonra da Azərbaycanda sürətli iqtisadi inkişaf olacağını bildirmişdir. Son illər respublikamızda yaşanan iqtisadi inkişaf strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının



istehsalının, həmçinin əkin sahələrinin artırılması, regionlarda müasir tələblərə cavab verən zavodların fəaliyyətə başlaması, toplanılan məhsulun pulunun dərhal ödənilməsi, üstəlik dövlətin sahibkarlara, fermerlərə subsidiyalar verməsi əhalinin bu sahəyə olan marağını daha da artırıb. Ötən illə müqayisədə əkin sahələri daha da genişləndirilib. Bütün bunlar bir neçə il əvvəl müəyyənləşdirilmiş proqnozları artıq gerçəkləşdirib.

Qeyd etdiyimiz kimi, qeyri-neft sektorunun inkişafı dövlət büdcəsinin artımına da öz təsirini göstərib. Xəbər verilir ki, Azərbaycanın 2018-ci il üçün dövlət büdcəsi artıq Milli Məclisdə təsdiq olunub. Büdcənin xərclər və gəlirlər hissəsinin 3 milyard manatdan çox artımla təsdiqlənməsi ölkəmizin inkişafının göstəricisidir. Bu, növbəti il iqtisadiyyatda canlanma yaranacağından da xəbər verir.

Dövlətimizin başçısı regionlara səfərləri zamanı sakinlərlə keçirdiyi görüşlərdə bu uğurlardan söhbət açarkən deyib ki, makroiqtisadi göstəricilərin yenidən yaxşılaşması hökumətə imkan verəcək ki, nəhayət, maaş və sosial ödəmələrdə illik inflyasiyanı nəzərə alaraq, artıma getsin. İqtisadi yüksəliş gələn ilin büdcəsində əmək haqlarının və sosial ödəmələrin artırılması üçün vəsait nəzərdə tutulacağına böyük ümid yaradır. Təbii ki, əmək haqlarının artması əhalinin alıcılıq qabiliyyətinin yenidən yüksəlməsi və beləliklə, iqtisadi canlanmaya təkan verməsi üçün iqtisadi alətlərdən biridir.

Qeyri-neft sektorunun inkişafı və regionlarda yeni infrastruktur layihələrin reallaşdırılması, bununla yanaşı, “Azərbaycan brendi”nin xarici bazarlarda çoxalması neftin kəskin ucuzlaşmasından sonra respublikamızda baş vermiş iqtisadi geriləmələrin ardınca ölkə iqtisadiyyatının yenidən davamlı inkişaf mərhələsinə daxil olmasına imkan vermişdir. Bu tərəqqi, təbii ki, əsasən, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun sürətli inkişafı hesabına baş verəcək.

Artıq xalqımız bu inkişafın bəhrəsini görür. Dövlət başçımızın regionlara səfərləri zamanı açılışını etdiyi zavodlar, istirahət mərkəzləri, istehsal müəssisələri, müasir tələblər səviyyəsində qurulmuş yol infrastrukturu, içməli su layihələrinin reallaşdırılması bir daha təsdiqləyir ki, ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə başçısının regionlara səfərləri zamanı da bu uğurların şahidi olduq.

Son dövrlərdə ölkəmizdə sosial sahədə həyata keçirilən siyasətin tərkib hissəsi kimi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi dövlətimizin qarşıya qoyduğu vəzifələrin prioritetinə çevrilib. Bu məqsədlə digər sahələrlə yanaşı, dayanıqlı və təmiz içməli su ilə təminatı, həmçinin kanalizasiya şəbəkələrinin

dövlət siyasətinin prioritetinə çevrilib.

Prezident İlham Əliyev Ağcabədi rayonuna səfəri zamanı 37 yaşlı Tarix-diyarşünaslıq muzeyinin yenidənqurmadan sonrakı açılışında, bütün zəruri sosial infrastrukturla tam təchiz edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının, həmçinin Olimpiya İdman Kompleksinin, yeni çörək və un məmulatları zavodunun açılışlarında iştirakı əhali tərəfindən böyük sevinclə qarşılanmışdır. Dövlət başçısının sərhəd bölgəsinə yaxın olan "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olması əsgər və zabitlərimizdə böyük qürur hissi yaratmışdır. Ali Baş Komandanın cəhbə bölgəsinə səfəri, hərbiçilərlə görüşü, onlara yaradılan şəraitlə tanışlığı, şəxsi heyət üçün yaradılmış sosial-məişət



Bütün bunlar xalqımızda bir daha əminlik yaradır ki, Vətənimizin bir qarış torpağı da işğal altında qalmayacaq və güclü, qüdrətli ordumuz işğalçı Ermənistan silahlı qüvvələrinə

yumurta, 1,4 min ton quş əti və 750 min baş ətlik kənd toyuğunun istehsalı nəzərdə tutulub. Layihənin icrası nəticəsində 150 nəfər daimi iş yeri ilə təmin olunacaq.

emalı müəssisələri və logistika mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır. Rayonda yeni xəstəxananın tikilib istifadəyə verilməsi əhali tərəfindən hərarətlə qarşılanmışdır. Çünki hazırkı Mərkəzi xəstəxana ötən əsrin 70-ci illərində inşa olunduğundan yararsız vəziyyətdədir. Ən müasir standartlar səviyyəsində tikilmiş və təchiz olunmuş yeni xəstəxanada əhalinin müayinə və müalicəsinin yüksək səviyyədə təşkili üçün hər cür imkanlar yaradılıb. Bu tibb ocağındakı cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, doğum, nevrologiya, anesteziologiya və reanimasiya, hemodializ, fizioterapiya, infeksion, poliklinika, təcili təxirəsalınmaz yardım şöbələri, klinik laboratoriya, şüa diaqnostika kabinetləri tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib.



Buradakı şərait onu deməyə əsas verir ki, son illər səhiyyə sahəsində baş verən dəyişiklik bu sektorun dünyanın ən müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasının nəticəsidir. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində regionlarda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər mürəkkəb əməliyyatların aparılmasına imkan yaranıb. Bu illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzinin inşası

keçirilən tədbirləri yüksək dəyərləndirmiş və bunu ölkəmizin iqtisadi gücünün artması ilə əlaqələndirmişdir: “Bu, onu göstərir ki, ölkəmizin bütün bölgələrində gözəl imkanlar var. Bu, onu göstərir ki, Azərbaycan bundan sonra da sosial sahədə böyük uğurlara imza atacaq. Çünki belə xəstəxanaların tikintisi, əlbəttə ki, maliyyə vəsaiti tələb edir və bu, təmin olunur. Azərbaycan iqtisadiyyatı inkişaf edir, maliyyə vəziyyətimiz sabitdir, siyasətimiz sosialyönümlüdür və sosial sahənin inkişafı bizim prioritetimizdir. Ölkəmizin bütün bölgələrində müasir xəstəxanalar istifadəyə verilib. Hesab edirəm, 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın. Gələn il təqribən altı yeni mərkəzi rayon xəstəxanası açılacaqdır. 2019-cu ildə qalan xəstəxanalar da istifadəyə veriləcək və beləliklə, Azərbaycanın hər bir şəhərində ən müasir tibbi xidmət göstəriləcək”.

Ölkə rəhbərinin bugünlərdə Quba rayonuna səfəri də yerli sakinlər üçün əlamətdar olmuşdur. Çünki səfər zamanı Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi magistralının 45-202 kilometrlik hissəsində tikiləcək avtomobil yolunun təməli qoyulmuş, Quba “ASAN həyat” Kompleksinin, Bayraq Muzeyinin və “Azərxalça” ASC-nin filialının, həmçinin 12 kəndin əhalisinin istifadə edəcəyi avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmasından sonra açılış mərasimləri olmuşdur. Dövlətimizin başçısı Quba şəhərində 32 çoxmənzilli binanın əsaslı təmirinə başlanılması üçün Prezidentin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılması üçün sərəncam imzalamışdır.

Dövlətimizin başçısı regionlarda sakinlərlə keçirdiyi görüşlərdə qarşıda duran vəzifələr barədə məlumat verərkən demişdir ki, planlarımız çoxdur. Bu ilin uğurla başa çatdığını vurğulayan və gələn il fəal işləməyi tövsiyə edən respublikamızın rəhbəri 2018-ci ilin də ölkəmiz üçün uğurlu olacağına əminliyini ifadə etmişdir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***